

REAL Hərəkatının sədri və prezidentliyə namizədi İlqar Məmmədov Mərkəzi Seçki Komissiyasını məhkəməyə verib. Bu barədə Hərəkatın mətbuat xidmətindən məlumat verilib. Məlumatda bildirilir ki, bu gün İ.Məmmədovun vəkili və səlahiyyətli nümayəndəsi Xalid Bağırov müvəkkilinin müraciəti əsasında Mərkəzi Seçki Komissiyasının çıxardığı qərarla bağlı bu qurumu məhkəməyə verib.

Xatırladaq ki, ötən həftə MSK-nın iclasında qərara alınmışdı ki, İ. Məmmədov təcridxanada olduğu üçün onun sənədlərində poçtun deyil, təcridxananın möhürü olmalıdır. Belə olmadıqda məktublar anonim sayılır. Bu səbəbdən də MSK İ.Məmmədovun namizədliyini təsdiq etməkdən imtina edib.